# EURead-in oxuma və savadlılıq haqqında bəyanatı

Biz, qitə üzrə 23 ölkədən olan 34 dövlət, QHT və nəşriyyat orqanını təmsil edən EURead-in üzv təşkilatları regional, milli və supranasional səviyyədə Avropa liderlərini oxumanın ayrı-ayrı vətəndaşların inkişafında, inkişaf edən iqtisadiyyatın fəaliyyətində və müasir demokratiyaların işləkliyinin təmin edilməsinə yardım etməkdə oynadığı fundamental rolu tanımağa çağırırıq.

Biz xüsusilə aşağıdakı prinsiplərin tanınmasına və onlar üzrə fəaliyyətə çağırırıq.

EU READ

KİTABISTAN

EU READ

# 1.
# Oxumaq və tənqidi oxumaq qabiliyyəti fərdi inkişaf üçün zəruridir və fundamental insan hüququdur.

Zövq üçün müntəzəm oxumağın mental sağlamlığı və rifahı yaxşılaşdırdığı, bütün tədris proqramı üzrə nailiyyətlərlə düz mütənasib olduğu, sosial hərəkətliliyi inkişaf etdirdiyi və cəmiyyətdə iştirakçılığa imkan verdiyi geniş şəkildə sübut edilib.
PISA mütaliənin tərifini "məqsədlərinə çatmaq, bilik və potensialını inkişaf etdirmək, cəmiyyətdə iştirakçılıq üçün yazılı mətnləri anlamaq, istifadə etmək, üzərində düşünmək və onlarla məşğul olmaq" kimi verir. Fərdlərin həyatına böyük təsirinə görə oxumağı və oxumağı sevməyi öyrənmək fundamental hüquqdur.

KİTABISTAN

EU READ

## 2.
## Oxumaq bacarığı bir çox cəhətlərdən cəmiyyətimizin işləkliyinin istinad nöqtəsidir və buna görə də bu məsələ hər kəsi maraqlandırır.

Bacardığı ən yaxşı səviyyədə oxuya bilən vətəndaşlara sahib olmaq iqtisadi göstəriciləri inkişaf etdirə, səhiyyədə daha yaxşı nəticələrə imkan yarada, sosial mobilliyi gücləndirə və sosial birliyi yaxşılaşdıra bilər. Avropa vətəndaşlarının müntəzəm oxucu olmasını təmin etmək təhsil və mədəniyyət sektorlarından kənardakı dövlət və qeyri-dövlət subyektlərinin geniş spektrini maraqlandıran məsələdir. Buraya digərləri ilə birlikdə biznes və ticarət dünyasında, səhiyyə və regional inkişaf sektorlarında fəaliyyət göstərən təşkilatlar da daxildir.

KİTABISTAN

# 3.
# Əgər biz demokratiyalarımızı qorumaq istəyiriksə, tənqidi oxumağı bacaran vətəndaşlara sahib olmalıyıq.

Dezinformasiya dövründə məlumatı şərh etmək və ifadələrin etibarlılığını qiymətləndirmək bacarığı müasir demokratiyaların işləkliyi üçün zəruridir. Yüksək səviyyəli tənqidi savadlılığın təşviqi hökumətlər üçün prioritet olmalı və Aİ üzvləri üçün Demokratiyanın Müdafiəsi paketinin bir hissəsini təşkil etməlidir.

EU READ

KİTABISTAN

## 4.
## Mütaliə uşağın ilk günlərindən ailə həyatının bir hissəsi olmalıdır və hökumətlər erkən yaşlar üçün kitab hədiyyə proqramlarına daha çox sərmayə qoymalıdırlar.

Uşağın inkişafı üçün ilk 1000 günün əhəmiyyətinə dair geniş yayılmış elmi sübutlar, həmçinin azyaşlı uşaqlarla birlikdə oxumağın onların dili mənimsəməsində və valideynləri, yaxud baxıcıları ilə emosional bağ yaratmaqda oynaya biləcəyi önəmli rola dair sübutlar var. Biz bilirik ki, kiçik yaşlarda kitab oxunan uşaqların özlərinin sonradan oxumağa davam etməsi ehtimalı daha böyükdür. Düşünürük ki, heç bir uşaq bunun təmin etdiyi fürsətdən məhrum olmamalı və hökumət faydası əsaslı şəkildə sübut olunmuş kitab hədiyyə proqramlarına daha çox sərmayə qoymalıdır. Kitab hədiyyə proqramları Avropa Uşaq Təminatı təşəbbüsünün bir hissəsini təşkil etməlidir.

EU READ

KİTABISTAN

## 5.
## Bacarıqlı kitabxanaçıların işlədiyi uşaq bağçası və məktəb kitabxanaları, icma kitabxanaları vasitəsilə geniş çeşiddə kitaba çıxış əldə etmək insanlara oxumağa qarşı sevgini bəsləmək üçün vacibdir və bunun üçün maliyyə dəstəyinə ehtiyac var.

Avropa ölkəsində yaşayan hər bir vətəndaş doğulduğu andan etibarən müxtəlif çeşiddəki bütün növ oxu materiallarına müxtəlif formatlarda çıxış etməlidir, çünki bu, müntəzəm oxu vərdişlərinin yaranmasına və davamlılığına kömək edir. İnsanlara sevəcəkləri kitabları kəşf etməyə kömək edə biləcək informasiya mütəxəssislərinin işlədiyi məktəb və icma kitabxanalarına sahib olmaq bizim oxu infrastrukturumuzun vacib hissəsidir.

EU READ

KİTABISTAN

# 6.
# Geniş spektrdəki aktorların həyata keçirdiyi oxuma təşviqi dəstəklənməlidir.

İnsanların oxumaq üçün təşviqə ehtiyacı var və bu, xüsusilə müntəzəm oxumaqdan ən çox fayda əldə edənlər üçün keçərlidir. Dövlətin və QHT-lərin təcrübəsindən, eləcə də müəlliflərin, illüstratorların, naşirlərin və kitab satıcılarının intellektual kapitalından faydalanan mütaliənin təşviqi proqramları davranışda dəyişikliklərə nail olmaq üçün daimi investisiya tələb edir. Bu aktorlar təşviqat fəaliyyətinə öncüllük edə bilərlər. Oxumağın yüksək qiymətləndirildiyini bildirmək isə cəmiyyətin hər bir elementinin məsuliyyətidir.

EU READ

KİTABISTAN

# EURead Members

- Anne Çocuk Eğitim Vakfı – ACEV (Turkey)
- Asociación Artística Sociocultural Mestiza (Spain)
- Bonniers Familjestiftelse (Sweden)
- BookTrust (United Kingdom)
- Children’s Books Ireland (Ireland)
- Detski Knigi Foundation (Bulgaria)
- Diavazontas Megalono (Greece)
- Federation of European Publishers (Belgium)
- Foreningen !les (Norway)
- Good Books (Poland)
- HUNRA - Hungarian Reading Association (Hungary)
- Iedereen Leest  (Belgium)
- Kitabistan (Azerbaijan)
- Libranda (Spain)
- LitCam (Germany)
- Lubimyczytać.pl (Poland)
- Lukukeskus Läscentrum (Finland)
- Martynas Mažvydas National Library (Lithuania)
- Medienzentrum Ostbelgien (Belgium)
- Nati per Leggere (Italy)
- National Literacy Agency (Malta)
- Österreichisches Bibliothekswerk (Austria)
- Plano Nacional de Leitura (Portugal)
- Chetene - Reading Foundation (Bulgaria)
- Schweizerisches Institut für Kinder- und Jugendmedien (Switzerland)
- Scottish Book Trust (United Kingdom)
- Stichting Lezen (The Netherlands)
- Stiftung Lesen (Germany)
- Svet Knihy (Czech Republic)
- The Polish Book Institute (Poland)
- Turkish Publishers Association (Turkey)
- Ukrainian Book Institute (Ukraine)
- Universal Reading Foundation (Poland)
- Was steht da? (Austria)

EU READ

KİTABISTAN